UOT 327; 930.22
https://doi.org/10.30546/3006-0346.2025.3.87.568

# İSRAİL VƏ HƏMAS ARASINDA QƏZZADA MARAQLARININ TOQQUŞMASI VƏ "ƏL-ƏQSA TUFAN" ƏMƏLİYYATI

**SƏKİNƏ BABAZADƏ**
*Bakı Dövlət Universiteti*
*Beynəlxalq münasibətlər kafedrasının doktorantı*
*E-mail: sakinababazadehhh@gmail.com*

**"Əl-Əqsa Tufan" əməliyyatı**

II Dünya müharibəsindən sonra Yaxın Şərqdə müstəqillik əldə edən dövlətlər arasında başlanan "Müqəddəs torpaq" iddiaları xüsusilə də Qəzza Zolağında silahlı qarşıdurma və terror aktları şəklində indiyə qədər davam edir, İsrail və Fələstin arasındakı münaqişə 7 oktyabr 2023-cü ildə yenidən gərginləşərək dünya siyasətinin aktual mövzularından birinə çevrilmişdir. Avropa dövlətlərinin Yaxın və Orta Şərq regionunda gücü getdikcə azalmış və digər regional dövlətlərin maraqlarının toqquşduğu regiona çevrilmişdir və ABŞ tərəfindən İsrail hər zaman dəstəklənən bu münaqişədə qarşı tərəfdən isə İran tərəfindən maliyyə yardımı ayrılmış qeyri-dövlət aktoru olan Həmas bu hərbi əməliyyatlarda iştirak edir.

"Əl-Əqsa Tufan" hərbi əməliyyatlarından öncə tarixə qısa nəzər yetirsək, 2005-ci ildə İsrail ordusu Qəzzanı tamamilə tərk edib və daha sonra burada Qəzza zərfi yaranıb və İsraillə 40 kilometr sərhədboyu olan bu ərazidə Reim hərbi bazası, 40 yaşayış məntəqəsi (Nahal Oz, Magen, Kfar Azza və s.) daxildir. Ümumi götürdükdə, Qəzza Zolağı, bütün qarşıdurmalar bu ərazi daxilində baş verdiyi üçün hər iki tərəfə görə bufer zona hesab edilir və bütün zərbələr İsrail tərəfindən daha rahat dəf edildiyi üçün bu ərazi daha çox strateji əhəmiyyət daşıyır. Həmas terror təşkilatının bir qolu olan İzz ad-Din al-Qassam Tugayları adlı briqada 7 oktyabr 2023-cü ildə "Əl-Əqsa Tufan" əməliyyatı adlandırdığı genişmiqyaslı hücumda Fələstinin Qəzza zərfi adlanan ərazidən İsrailə dəniz və havadan zərbələr endirildi. Bu hadisə Yom Kippur müharibəsinin ildönümündə baş vermişdir, İsrailin bu hərbi əməliyyatlardan xəbərdar olmaması 1973-cü il müharibəsindən sonra ilk dəfə ağır zərbələr almışdır. Həmçinin, Simchat Torah və Şemini Atzeret dini bayramlarını və Nova musiqi festivalını qeyd edən yəhudilər Həmas tərəfindən roketlər hücumlarına da məruz qalmışdır. İzz ad-Din al-Qassam briqadasının komandiri Məhəmməd Deif "Əl-Əqsa Tufan" əməliyyatının başlamasına xüsusi bir səbəb nəticəsində deyil, yaranmış mövcud vəziyyətə qarşı olduğunu qeyd edir, lakin bəzi məsələlər, xüsusilə də Netanyahu hökuməti məhbusların dəyişdirilməsi ilə bağlı müqavilədən imtina etməsi, "Əl-Əqsa Tufan" məscidin çirkləndirməsi, cəzaçəkmə məntəqəsində xanımlara qarşı zor tətbiq etməsi kimi məsələlər də bu əməliyyatın başlamasına zəmin yaradıb [1.s 3-9].

**Humanitar böhran**

Qəzza sadəcə bufer zona deyil, həmçinin, İsrail siyasi səbəblərdən dolayı qurudan və dənizdən blokadaya alınıb və bu proses fələstinlilər üçün həyati vacib nemətlərin əldə edilməsində də problemlər yaranır. Netanyahu hökuməti tərəfindən Həmasın təhdidlərinə qarşı bəzi tədbirlər həyata keçirilib: Qəzza blokadaya alındığı üçün tamamilə dünya ilə bağlantısı kəsilib, sənaye və inşaatla bağlı yeni qadağalar, bəzi məhsulların ixracatı ilə bağlı qadağalar (elektrik, kənd təsərrüfatı və balıqçılıqla bağlı qadağalar) qərb sahillərinə çıxışı olan Erez keçidinə bağlı məhdudiyyətlər və s. daxildir. Bu qadağalara görə fələstinlilər ən sadə hüquqlarını belə əldə edə bilmirlər, beləliklə onların sağlam yaşamaq haqları, təhsil hüquqları, rifah halda yaşamaq kimi hüquqları əllərindən alınır.

İsrail 2005-ci ildə Qəzzanı tamamilə tərk etdikdən sonra bura bitişik hava məkanı və dəniz (Misirə bitişik 12 km istisna) əraziləri nəzarət etməyə başladı. 2008-2009, 2012, 2014, 2021, 2022, 2023-cü illərdə İsrail tərəfindən Qəzzada İranın gücünü zəiflətmək məqsədilə Həmasa qarşı hərbi əməliyyatlar aparmış və bu müddət ərzində Fələstin dövlətinin iqtisadiyyatına ciddi zərbə vurmuş, xüsusilə kənd təsərrüfatına və qida sahəsinə ciddi zərərlə üzləşmişdir. 7 oktyabr hadisəsindən öncə də elektrik enerjisi və icməli su ilə bağlı problem qalmaqda idi. Beynəlxalq Valyuta Fondunun paylaşdığı hesabata görə, 2008-2009-cu illərdə həyata keçirdiyi hərbi əməliyyatlarda ümumi kapital fondunun səhmdarın 60%-i tamamilə məhv edilmiş, qalan 40%-in 85%-i 2014-cü il əməliyyət zamanı məhv edilmişdir. 2013-2023-cü illər ərzində Qəzzada heç bir inkişafdan söz gedə bilməz, humanitar böhranın yaşadığı bu bölgə beynəlxalq yardımdan asılı vəziyyətə çevrildi. 2008-

ci ildə 22 gün İsrailin "Dökmə Qılınc Əməliyyatı" həyata keçirməsində məqsəd Həmas və digər qeyri-dövlət aktorlarının gücünü tamamilə məhv etmək idi. Lakin bu əməliyyatlar uğursuzluqla nəticələndiyindən 2012 və 2014-cü illərdə İsrail yenidən hərbi əməliyyatlara başlamışdı [2, s 3-5].

"Əl-Əqsa Tufan" adlı genişmiqyaslı hərbi əməliyyat zamanı Nova musiqi festivalı keçirilirdi və dünyanın 4 tərəfindən turistlər bu festivalı qeyd etmək məqsədilə İsrailə səfər etmişdir. Bu hücumlar zamanı Həmas və digər qeyri-dövlət aktorları tərəfindən 32-si uşaq olmaqla 250-dən çox yəhudi və digər xarici ölkələrin vətəndaşları əsir götürüldü və 2-i körpə olmaqla 30 -dan çox insan öldürüldü və məhbusların hamısı azad olunmadığı üçün ölənlərin daha çox olacağı da gözlənilirdi. Hər iki tərəfdən insan tələfinin çox olması digər ölkələrin də gündəm olmuşdur və əməliyyatların dayandırılması üçün çağırışlar edilirdi. Beləliklə, Qətər vasitəsilə ilk dəfə 24 noyabr - 1 dekabr tarixləri arası müvəqqəti atəşkəs elan edildi. İlk hissədə Qırmızı Xaç vasitəsilə əsirlərin mübadiləsi zamanı hər iki tərəfdən 13 nəfər həbsdən azad edildi, 1 filipinli və 10 taylandlı, daha sonra 30 fələstinli və 8 yəhudi azadlığa buraxıldı. 2023-cü ildə isə 2 fransız, 2 amerikalı, 1 holland, 24 tayland vətəndaşı, 1 rus, 2024-cü ilin statistikasına görə məhbuslar arasında 3 argentinalı, 1 alman vətəndaşı, 1 braziliyalı, 1 britaniyalı və 1 rus, 1 fransız-meksikalı da vardır. İki tərəf arasında məhbusların mübadiləsi üçün ikinci dəfə atəşkəs 19 yanvar 2025-ci ildə elan edildi və 26 fevral tarixinə qədər davam etdi. 2014 və 2015-ci ildə Həmas tərəfindən əsir götürülən 2 yəhudi 22 fevral 2025-ci ildə İsrailə təhvil verilmişdir. 2 körpə qardaşlarının cansız bədənini də bu atəşkəs zamanı Həmas tərəfindən verilmişdir. Ümumiyyətlə, 40 yaxın yəhudi, 2 amerikalı, 1 britaniyalı, 1 rus, 1 argentinalı, 5 tayland vətəndaşı, 300-dən çox fələstinli azad olundu. 20 -26 fevral arası isə 8 yəhudinin cansız bədəni Həmas tərəfindən təhvil verildi. 2025-ci ilin ilk günlərində İsrail vətəndaşı olan 1 ailənin 4 üzvünün meyidi İsrail ordusu tərəfindən tapılmışdır. Ən sonuncu əsir Həmas tərəfindən təhvil verilən 1 amerikalı vətəndaşdır. Ümumilikdə Həmas tərəfindən 70 məhbusun öldürüldüyü və 40 yəhudinin cəsədini İsrail Müdafiə Nazirliyində olduğunu elan etdi [8].

Həmasın 7 oktyabr 2023-cü ildə terror aktlarını özündə ehtiva edən genişmiqyaslı hücumlarından sonra İsrail tərəfi "Dəmir Qılınclar" adlı hərbi əməliyyata başladı və bu dəfə xəstəxanalar, məktəblər, məscidlər və kilsələr bombalandı və mülki insanlar öldürüldü. 7 oktyabr hadisələri bəzi mənbələrə əsasən ümumilikdə 24 min insan (7100 qadın və 10400 uşaq) öldürülmüşdür və fələstinlilərin kütləvi şəkildə didərgin salınmasına səbəb olmuşdur. BMT İnsan Hüquqları üzrə Universal bəyannamənin şərtləri pozan əməllərə mülki vətəndaşların (uşaq, qadın və qoca) amansızlıqla qətlə yetirmə, müharibə zamanı həyatı vacib ehtiyacların (təmiz içməli su, qida, tibbi ehtiyaclar) insanların əldə edilməsində yaratdıqları problemlər, məhbus olan şəxslərə dözülməz işgəncələr görməsi, irqi ayrı-seçkiliyə məruz qalmaq, xəstəxanalara edilən raket hücumları (müharibə şəraitində beynəlxalq hüquq normalarına görə qəti qadağandır), əməliyyat zamanı bəyaz fosfor bombasının istifadəsi nəticəsində insan itkiləri və s. daxildir. [3, s 3-5]

### Beynəlxalq reaksiya

ABŞ, Avropa İttifaqı və İsrail tərəfindən terror təşkilatı kimi tanınan və İran İslam Respublikasının dəstəyilə Həmas Qəzza zolağından İsrailə qarşı bu genişmiqyaslı hücum əməliyyatları nəticəsində 1200 yəhudi və 46 amerikalı vətəndaş öldürülmüşdür. Baş Nazir vəzifəsini icra edən Benjamin Netanyahu bu hərbi əməliyyatların fələstinli mülki vətəndaşlara deyil, Həmasa qarşı olduğunu qeyd edirdi və İsrail dövlət təhlükəsizliyinə zərər vurmayan fələstinlilərin Qəzzada idarəçilik sistemini həyata keçirməli olduğunu müsahibəsində qeyd edirdi. Bayden administrasiyasının Yaxın Şərq siyasətində prioritetində Həmasın regionda gücünü zəiflətməkdir və beləliklə, İsrailə 8.7 milyard dollar hərbi yardım, 9 milyard dollar isə humanitar yardım və 1 milyard dolları isə fələstinlilərə yardım ayırdı. Digər əsas məsələ isə 7 oktyabr 2023-cü il hadisələri zamanı girov düşən yəhudiləri azad etməkdir və bu məqsədlə İsrailə dəstəyini əsirgəmir. Girov və məhbusların mübadiləsi üçün digər region dövlətlərlə (Qətər və Misirlə) əməkdaşlıq edirdi. Həmçinin, iki ölkə arasında 20 milyard dollardan çox dəyərində silah satışı həyata keçirildi və hərbi silah-sursata yeni F-25 qırıcı təyyarəsi və hava hücumundan müdafiə sistemi üçün raketlər xüsusilə seçilirdi. 8 fevral 2024-cü ildə NSM-20 adlı Milli Təhlükəsizlik Memorandumu imzalanmış sənədə əsasən göndərilmiş silahlar beynəlxalq hüquq normaları daxilində istifadə edilməsi üçün zəmanət almalıdır və həmin silahlardan

istifadə edərkən humanitar yardımın bölgəyə çatdırılmasında heç bir maneə olmamalıdır [4, s 1-10].

"Əl-Əqsa Tufan" əməliyyatından öncə 17 aprel 2023-cü ildə İranın Beyrutdəki səfirliyində Həmas, Hizbullah və İslam Cihad qruplaşması arasında görüş keçirilmişdir və görüşdən sonra Həmas tərəfindən İsrailə 34 raket atılmışdır. Hadisədən sonra İran İslam Respublikasının ali lideri Xamenei tələbələrlə görüşdə bu hadisədən xəbərsiz olduqlarını qeyd edib və İranın Fələstinin müstəqilliyi üçün döyüşən Həmasa dəstəyini ifadə edib. Son 3 il ərzində İranın bu münaqişədəki rolu barədə müxtəlif fərziyyələr və məlumatlar vardır. Yalnız 1 gün ərzində İranın dəstəyi ilə Həmas Qəzza zolağından İsraili 5000 raket vasitəsilə bombalamışdı. Bəzi mənbələrdə ay ərzində İran tərəfindən Həmasa 30 milyon dollar (raket istehsalı və texniki biliklər) ayrıldığını dair məlumatlar vardır.

İranın bu münaqişədə iki məqsədi var: 1) regional müharibədən qaçmaq (ABŞ-ın dəstəyi yekununda İran daha çox itkilərə səbəb ola bilər, hətta hökumət dağıla bilər) və 2) Fələstini İsraildən gələn təhdidlərdən qorumaq. Lakin bütün cəhdlərə baxmayaraq 2024-cü ildə Qəzzada vəziyyət kritik hal almışdır və vəziyyəti idarə etmək olduqca çətindir [8, s 82-86].

İsrailə edilən terror aktlarını qınayan və İsrailə hər zaman dəstək olan ölkələr arasında ABŞ, Birləmiş Krallıq və Almaniyadır. Genişmiqyaslı hücumlardan sonra İsrailə ilk səfər edən siyasətçisi isə Almaniya federal kansleri Olaf Şolts terroru qınadığını və İsraili dəstəklədiyini qeyd etmişdir. Hətta Almaniyada yəhudilərə qarşı hər cür etirazlar qadağan edildi. Lakin bu qadağalardan sonra ölkədə anti-semitik hadisələr daha da artmışdır (2 molotov kokteyli sinaqoqa atılmışdı). Həmçinin, alman cəmiyyəti də bu mövzuda 2 hissəyə bölünmüşdür, bir qrup insan terror aktını pisləsə də, digər qrup isə Həmas-ın əməliyyatında daha çox günahsız fələstinlilərin əziyyət çəkdiyini qeyd edirdilər. Britaniyanın Baş naziri müsahibəsində İsraili dəstəklədiyini və hər ölkənin özünü xarici təhditlərdən qorumaq üçün əks-həmlə əməliyyatının vacibliyini vurğuladı. Britaniya yalnız diplomatik dəstəklə qalmır, həm də İsrailə silah tədarükü edir. Krallıq ABŞ-ın xarici siyasəti ilə bir addımlayır lakin ölkədəki minlərlə müsəlmanlar milli yürüşə qatılaraq Netanyahu hökumətinin siyasətinə etiraz etdilər. Britaniyanın Xarici İşlər Naziri Devid Kemeron Ərəb Ligasının nümayəndələri ilə görüşdə məhbusların geri qaytarılmasını, humanitar yardım və sülhün bərqərar olmasının vacibliyini vurğuladı.

Avropa İttifaqına daxil ölkələr bu əməliyyatlara fərqli mövqelərdən yanaşırdı. Belə ki, Fransa prezidenti Emanuel Makron hər iki tərəfi atəşkəsə çağıraraq, Qəzzaya 21 milyon dollar çərçivəsində humanitar yardımlar göndərmişdi. Yaxın və Orta Şərqdə sülhün və təhlükəsizliyin təmin olunması üçün İsrail-Fələstin münaqişəsinin tamamilə həll olunmasını dəstəklədiyini ifadə etmişdir.

İsveç dövləti də İsrailə yönələn terror aktını qınayır, İsveçin xarici işlər naziri açıqlamasında İsrailin terrorla mübarizəsini dəstəkləyir lakin Həmasa qarşı genişmiqyaslı hərbi əməliyyatın beynəlxalq hüquq normaları daxilində aparmasını vurğulayır və Həması əsir aldıqları məhbusları oyuncaq kimi istifadə etməməli və İsrailin isə Həmasa qarşı hərbi əməliyyatlar zamanı mülki insanlara hədəf almamalı olduğu barədə çağırış edib. Həmçinin Qəzzada yaşayan insanların humanitar yardıma ehtiyacları olduğunu, xarici ölkələrdən gələn yardımların təhlükəsiz şəkildə çatdırılmasında həm Həmasın, həm İsrailin məsuliyyəti olduğu qeyd edilir. İsveç dövləti İsrail və Fələstin arasındakı münaqişənin diplomatik yolla həllinin vacibliyi və yalnız 2 dövlət ortaq yol tapmalarının vacibliyini qeyd edirdi. [5, s 1-10]

Yaxın Şərqdə güc mübarizəsində iştirak edən Türkiyənin də İsrail-Fələstin münaqişəsində xüsusi rolu vardır. 7 oktyabr hadisələrindən sonra Türkiyə bu regionda maraqlarını qorumaq üçün daha aktiv olmağa başladı və xarici siyasətində ilk işi İsraillə normallaşdırma siyasətini dayandırdı. "Əl-Əqsa Tufan"ı Türkiyə üçün mühüm olan iki strategiyada zərər vurmuşdur (Yəməndəki münaqişəni həlli üçün Səudiyyə Ərəbistan və Husilər arasında danışıqların aparılması, bəzi Ərəb dövlətlərin İsraillə normallaşdırma siyasəti və Türkiyənin xarici siyasətində yeni strategiyanın hazırlanması). Hərbi əməliyyatlar yeni strategiyaya zərər vursa belə, Türkiyənin xarici siyasətində hər hansı dəyişiklik baş vermədi.

Yom-Kippur müharibəsindən sonra İsrailin aldığı ən böyük zərbə olan "Əl-Əqsa Tufan" hərbi əməliyyatını, Netanyahu açıqlamasında 11 sentyabr və Yəhudi soyqırımla müqayisə edirdi və əks hücum planına uyğun olaraq Qəzza Zolağını bombaladı. Aktiv xarici siyasətini işə salmasına baxmayaq Türkiyə hücumların qarşısını ala bilmədi. Həmçinin, Həmas-İsrail arasında əsir mübadiləsi üçün bütün gücünü səfərbər etsə belə, burda da istədiyi nəticəni

ala bilmədi. Humanitar böhranın dərinləşməsi, hər iki tərəfdən tələfatların çoxluğu, Türkiyənin İsrailə qarşı xarici siyasətində daha da sərtləşdi. İlk olaraq Türkiyə səfirini geri çağırdı, İsrailə qarşı iqtisadi məhdudiyyətlər tətbiq etdi. Bu münaqişə nəticəsində Türkiyə həm İsraillə normallaşdırma siyasətini qeyri-müəyyən müddətlik dondurdu, həm də Türkiyənin aktiv rolu beynəlxalq aləmdə də xüsusi çəkisini artırdı, Körfəz ölkələri və Misirlə münasibətin yaxşılaşması da Türkiyənin xarici siyasətində önəmli rol oynayırdı. [6]

Yaxın Şərqdə güc mübarizəsində fəal iştirak edən Çin hökuməti fələstinlilərin hüquq və mənafelərin qorunması üçün müstəqil Fələstin dövlətinin yaradılması və iki dövlət arasındakı münasibət daxilində İsrail-Fələstin məsələsinin sülh yolu ilə həllini dəstəkləyir. Çin xarici işlər naziri Vang Yi 2023-cü il 20 niyabr tarixində İndoneziya, Misir, Səudiyyə Ərəbistan, Fələstinin xarici işlər nazirləri və İslam Əməkdaşlıq Təşkilatının nümayəndələri ilə görüşdə 7 oktyabr hadisələrinə toxunaraq Çinin Ərəb və İslam dövlətləri ilə dost və qardaş olduğunu vurğulamışdır. İki dövlətin xarici işlər nazirliyi arasında baş tutan görüşdə Çin hökuməti hər bir ölkə təhlükəsizliyini qorumaq üçün özünə müdafiə hüququnu qəbul etdiyini, lakin beynəlxalq hüquq normaları daxilində bütün bu hərbi əməliyyatların həyata keçirilməsinin vacibliyini və iki ölkə arasında münasibətin davamlı gərginləşməsi yekununda insan ikilərinin artması, humanitar böhranın dərinləşməsindən narahat olduğunu vurğulayırdı. ABŞ və Çin qarşıdurması Yaxın Şərqdə sülhün bərqərar olmasını daha da çətinləşdirir və qarşıdurmanı BMT Təhlükəsizlik Şurasında keçirilən iclaslarda da aydın sezilir. Şurada İsrail-Həmas müharibəsilə bağlı 4 qətnamə ABŞ, Çin və ya Rusiya tərəfindən veto qoyulub. Həmçinin, ABŞ-ın dəstəklədiyi dərhal atəşkəs tələbi ilə bağlı qətnamədə Çin tərəfindən veto qoyulduğu üçün qəbul edilmədi. BMT TŞ-dəki İsrailin özünü müdafiə hüququnun yer almadığı qətnamə ABŞ tərəfindən veto qoyulduğu üçün qəbul edilmədi [7].

## Nəticə

7 oktyabr 2023-cü ildə Yaxın Şərqdə başladılan və beynəlxalq münasibətlər sistemində mühüm hadisə kimi qiymətləndirilən bu hərbi əməliyyatlar hələ də davam etdirilir. "Əl-Əqsa Tufan" hərbi əməliyyatı İsrailin hərbi, siyasi, iqtisadi sahələrinə də ciddi təsir etməsinə və uzun müddətli nəticələrin yaranmasına səbəb oldu. Belə ki, sadəcə İsrailin xarici siyasətinə və ölkənin daxili təhlükəsizliyə deyil. həm də İsrail-Ərəb dövlətlərinin normallaşma siyasətinə, İsrail-Türkiyə münasibətinə, genişmiqyaslı hərbi əməliyyatlardan sonra bəzi Avropa ölkələri Fələstini rəsmi dövlət kimi tanıması və beynəlxalq münasibətlərdə də ciddi dəyişiklik yaratdı. Qəzza sadəcə İsrailin və Həmasın deyil, həm də region dövlətlərinin maraqlarının toqquşduğu regiondur. Bir tərəfdən İsraili hərbi yardımlarla dəstəkləyən ABŞ, digər tərəfdən Həmasa 30 milyon dollar ayıran İran və Yaxın Şərqdə milli maraqlarını qorumaq məqsədilə bu münaqişəni sülhlə həll edilməsi üçün danışıqlar aparılmasını təklif edən Çin, Türkiyə bu prosesdə mühüm rol oynayır.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Operation Al-Aqsa Storm (Flood): Reasons, Consequences and Expected Scenarios, International Institute for Iranian Studies, October 2023, pp. 3-9*

*2. Economic costs of the Israeli occupation for the Palestinian people: the economic impact of the Israeli military operation in Gaza from October 2023 to May 2024, 2024, pp. 3-5*

*3. Güzel İ. H, 7 Ekim Sonrası Gerçekleşen İnsan Hakları İhlalleri Üzerine Bir İnceleme İnsan ve Toplum Bilimleri Araşdırmaları Dergisi, 2024, 675-678 s*

*4. Israel and Hamas Conflict In Brief: Overview, U.S. Policy, and Options for Congress, Congressional Research Service, 2024, pp .1-10*

*5. Moldicz C, Hungary external relations briefing: The Gaza conflict and European responses, 2023, pp. 6-10*

*6. Murat Yeşiltaş, Gazze ve Türkiye'nin Bölgesel Diplomasisi*

*7. Kim, M. P, Dong K, Prytherch M/Chinese narratives on the Israel-Hamas war, 2024*

*8. Bijan A, Iran's polıcy on the war in Gaza, 2024, pp 82-86*

*9. https://edition.cnn.com/interactive/2023/12/world/hostage-israel-hamas-deal-dg/*


## XÜLASƏ


Bu məqalədə 7 oktyabr 2023-cü il hadisələrindən İsrail-Fələstin münaqişəsinin sonrakı mərhələlərini və xüsusilə Həmasın bu münaqişədəki rolu barəsində araşdırılmışdır. 7 oktyabr Həmas tərəfindən hə-

yata keçirilən "Əl-Əqsa Tufan" əməliyyatına cavab olaraq Bayden administrasiyasından maddi və diplomatik dəstək alan İsrail Dəmir Qılınc adı verdiyi genişmiqyaslı hərbi əməliyyata başladı. Bir tərəfdən qərb dövlətlərinin dəstəyini görən Netenyahu hökuməti, digər tərəfdən Həması dəstəkləyən İran İslam Respublikasının bu regionda maraqlarının olması və super dövlətlərin maraqlarını qorumaq çərçivəsində münaqişəyə müdaxilə etməsi bu tarixi problemin həllini çətinləşdirən əsas məsələdir. Yaxın və Orta Şərq regionda təhlükəsizlik məsələsində xüsusi rolu olan İsrail-Fələstin münaqişəsi həll edilməsə, regionda daimi sülh və təhlükəsizlikdən söhbət gedə bilməz. Bu məqalədə İsrail-Həmas arasında gedən hərbi əməliyyatlar, digər ölkələrin güc mübarizəsi, dəymiş ziyan, humanitar böhran barəsində araşdırılma aparılmışdır.

**Açar sözlər:** *İsrail-Fələstin münaqişəsi, Həmas, ABŞ, "Əl-Əqsa Tufan" əməliyyatı, Dəmir Qılınc əməliyyatı.*

## SUMMARY

This article examines the subsequent stages of the Israeli-Palestinian conflict since the events of October 7, 2023, and in particular the role of Hamas in this conflict. In response to the Al-Aqsa Storm operation carried out by Hamas on October 7, Israel, which received financial and diplomatic support from the Biden administration, launched a large-scale military operation called Operation Iron Sword. On the one hand, the Netanyahu government, which is supported by Western countries, and on the other hand, the Islamic Republic of Iran, which supports Hamas, has interests in this region and intervenes in the conflict within the framework of protecting the interests of superpowers, is the main issue that complicates the solution to this historical problem. If the Israeli-Palestinian conflict, which has a special role in the security issue in the Near and Middle East region, is not resolved, there can be no talk of permanent peace and security in the region. This article examines the military operations between Israel and Hamas, the power struggle of other countries, the damage caused, and the humanitarian crisis.

**Keywords:** *Israeli-Palestinian conflict, Hamas, USA, Al-Aqsa Storm Operation, Operation Iron Sword.*

## РЕЗЮМЕ

В статье рассматриваются последующие этапы израильско-палестинского конфликта с момента событий 7 октября 2023 года и, в частности, роль ХАМАС в этом конфликте. 7 октября в ответ на операцию «Штурм Аль-Аксы», проведенную ХАМАС, Израиль, получив финансовую и дипломатическую поддержку от администрации Байдена, начал масштабную военную операцию под названием «Железный меч». Главным вопросом, осложняющим разрешение этой исторической проблемы, является тот факт, что правительство Нетаньяху, поддерживаемое западными странами, с одной стороны, и Исламская Республика Иран, поддерживающая ХАМАС, с другой, имеют свои интересы в этом регионе и вмешиваются в конфликт в рамках защиты интересов сверхдержав. Пока не будет урегулирован израильско-палестинский конфликт, играющий особую роль в безопасности региона Ближнего и Среднего Востока, не может быть и речи о постоянном мире и безопасности в регионе. В статье рассматриваются продолжающиеся военные операции между Израилем и ХАМАС, борьба за власть в других странах, причиненный ущерб и гуманитарный кризис.

**Ключевые слова:** *израильско-палестинский конфликт, ХАМАС, США, операция «Шторм Аль-Аксы», операция «Железный меч».*